# 9 may faşizm üzərində qələbə günüdür

## Qələbə Günü qeyd edildi



İkinci Dünya Müharibəsində faşizm üzərində Qələbənin 72-ci ildönümü münasibətilə mayın 9-da Qəbələdə təntənəli mərasim keçirilib.



9 May—Qələbə Günü münasibətilə Qəbələ Rayon İcra Hakimiyyətinin başçısı Səbuhi Abdullayev İkinci Dünya Müharibəsində həlak olan həmyerlilərimizin xatirəsinə ucaldılan “Ana” abidəsini ziyarət edib.

RİH başçısı abidənin qarşısına gül dəstəsi qoyub, Böyük Vətən Müharibəsində qəhrəmanlıqla həlak olmuş insanların əziz xatirəsini yad edib. Mərasimə rayonun hüquq-mühafizə orqanlarının, idarə, müəssisə, təşkilatlarının əmək kollektivləri, müharibə və əmək veteranları, ictimaiyyət nümayəndələri qatılıb.



Faşist Almaniyası Qərbi və Mərkəzi Avropanın bütün ölkələrinin ilhaqından sonra, 1941-ci il iyunun 22-də qəflətən SSRİ-yə hücum etmişdir.

XX əsrin 20—30-cu illərində Almaniyada və İtaliyada yaranmış faşizmin törətdiyi və bəşəriyyət üçün ən ağır və dəhşətli bəla olan İkinci Dünya Müharibəsində şanlı Qələbənin qazanılmasına həmin vaxt SSRİ-nin tərkibində olan Azərbaycan xalqı da böyük töhfələr vermişdir.

Müharibənin ilk günlərində bütün ölkədə olduğu kimi, Azərbaycanda da ümumi səfərbərlik elan edildi.

SSRİ-nin tərkibində olan digər respublikaların xalqları kimi, 600 min nəfər Azərbaycan vətəndaşı da cəbhəyə yollanaraq faşizmə qarşı döyüşmüşdür. Müharibənin birinci üç günündə Azərbaycandan ordu sıralarına 40 mindən çox oğlan və qız yola düşmüşdür. Respublika ərazisində 87 qırıcı batalyon, 1124 özünümüdafiə dəstəsi təşkil edilmiş, 15 min nəfərlik hava hücumundan müdafiə dəstələri yaradılmışdır. 1941-42-ci illərdə respublikada 1 milyon nəfər hərbi təlim proqramını öyrənmişdi.

Şimali Qafqazdan döyüşə başlayan 416-cı milli Azərbaycan diviziyası Berlinə ilk hücum edən 6 diviziyadan biri olmuşdur. Əsasən, azərbaycanlılardan ibarət 416-cı və 77-ci diviziyalardan 16 nəfər Sovet İttifaqı Qəhrəmanı adına layiq görülmüşdür. Ümumilikdə isə bu müharibədə 100 nəfərdən çox azərbaycanlı Sovet İttifaqı Qəhrəmanı adını almışdır.



Xalqımız arxa cəbhədə də misilsiz əmək hünərləri göstərmiş, ordunun ehtiyaclarını ödəmək üçün gecə-gündüz fədakarlıqla çalışmışdır. Böyük Qələbəyə neft Bakısının töhfəsi əvəzsiz olmuşdur. Müharibə illərində Sovet İttifaqında çıxarılan neftin 70 faizini Azərbaycan verirdi.

Hitler Azərbaycan nefti ilə Ukraynanın taxılını ələ keçirməyi Şərqdə özünün işğalçılıq siyasətinin əsası hesab edirdi.

İkinci Dünya Müharibəsi 2194 gün davam etmiş və 55 milyondan çox insanın ölümünə səbəb olmuşdur. Bu isə Birinci Dünya Müharibəsində həlak olanlardan 5 dəfə çox idi.

İkinci Dünya Müharibəsində şərəfli döyüş yolu keçmiş Azərbaycan övladlarının tarixi şücaətləri, habelə arxa cəbhədə fədakarlıqla çalışanların xidmətləri heç vaxt yaddaşlardan silinməyəcək, gənc nəslə əsl vətənpərvərlik nümunəsi olacaqdır.

Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyev hakimiyyətdə olduğu bütün dövrlərdə müharibə veteranlarının problemlərinə böyük diqqət və qayğı ilə yanaşmışdır. Ulu öndərimizin bu siyasəti Prezident İlham Əliyev tərəfindən də davam etdirilir. Qələbə bayramı ərəfəsində dövlətimizin başçısının Sərəncamı ilə müharibə iştirakçılarına, onların ailələrinə birdəfəlik maddi yardımın edilməsi bu qayğının bariz nümunəsidir.

**“Qəbələ”.**

**İlkin VƏLİZADƏ.**

## Üzvlük biletləri təqdim olunmuşdur



Qəbələ Regional «ASAN Xidmət» Mərkəzində ulu öndər Heydər Əliyevin anadan olmasının 94-cü ildönümü münasibətilə tədbir keçirilmişdir.

Mərasimi mərkəzin direktoru Əbdül Əliyev açmışdır.

Tədbirdə iştirak edən Azərbaycan Respublikası Prezidenti Yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin sədr müavini Ülvi Mehdiyev çıxışında bu gün ölkə Prezidenti cənab İlham Əliyev başda olmaqla dövlətimiz tərəfindən gənclərə böyük qayğı göstərildiyini, bu qayğı və diqqətin əsasının ulu öndər Heydər Əliyev tərəfindən qoyulduğunu bildirmişdir.

Yeni Azərbaycan Partiyası Qəbələ Rayon Təşkilatının sədri Abil Ağasəfov çıxışında qeyd etmişdir ki, qurucusu ulu öndər Heydər Əliyev olan Yeni Azərbaycan Partiyasında gənclərin xüsusi yeri var və onlar partiyanın ən fəal üzvləridirlər. Rayon təşkilatının sədri partiya sıralarına yeni qəbul olunmuş gəncləri təbrik etmişdir.

Yeni Azərbaycan Partiyası Qəbələ Rayon Təşkilatı sədrinin müavini, aparat rəhbəri Elçin Tağıyev ulu öndərin həyat və fəaliyyəti, Qəbələ səfərləri barədə geniş məlumat vermişdir.



Yeni Azərbaycan Partiyası Qəbələ Regional «ASAN Xidmət» Mərkəzi ərazi İlk təşkilatının sədri Murad Kərimov təşkilaitın yarandığı vaxtdan cəmi 3 ay keçməsinə baxmayaraq üzvlərinin sayının 40 nəfərə çatdığını, onların mərkəzin və rayonun ictimai həyatında fəal iştirak etdiklərini bildirmişdir.

Sonra Yeni Azərbaycan Partiyasına yeni qəbul olmuş 24 nəfər gəncə üzvlük biletləri təqdim olunmuşdur.



Üzvlük bileti təqdim olunanlar adından Nuranə Ağabəyli danışaraq üstündə ulu öndər Heydər Əliyevin imzası həkk olunan partiya biletinə layiq olmağa çalışacaqlarını bildirmişdir.

Tədbir ulu öndərin həyatından bəhs edən video çarxın nümayişi ilə başa çatmışdır.

**«Qəbələ».**

**İlkin VƏLİZADƏ.**